# Müzakirə - Azərbaycanda tələbə kreditləri proqramı

## “Bu, gənclərin təhsilə çıxış imkanlarını genişləndirəcək”

**”Maarifçi” Tələbə Kredit Fondu tələbələr üçün yaradılan fonddur. Fondun missiyası aztəminatlı ailələrdən olan tələbələrə kreditlərin verilməsi, onların təhsilinin başa çatmasına təkan göstərilməsidir”. ”Maarifçi” Tələbə Kredit Fondu, Təhsil Nazirliyi və Dünya Bankı ilə birlikdə ”Maarifçi” Tələbə Kredit Fondunun fəaliyyəti və Azərbaycanda tələbə kreditləri proqramı” mövzusunda tədbirdə səslənən bu fikirlər Fondun son bir ildəki fəaliyyətinə diqqət çəkdi.**

**Təhsil naziri Mikayıl Cabbarov, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri, dövlət və özəl qurumların nümayəndələri, yerli və beynəlxalq təhsil ekspertləri, KİV nümayəndələrinin iştirak etdiyi tədbirin tələbə kreditlərinin verilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, bu sahədə əməkdaşlıq imkanlarının artırılması məqsədi ilə keçirildiyi bildirildi.**



### "YALNIZ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ İLƏ MƏHDUDLAŞA BİLMƏRİK"

Ali təhsil sisteminin artıq bir neçə ildir ki, təsərrüfat əsaslı fəaliyyət göstərdiyini deyən **təhsil naziri Mikayıl Cabbarov** dövlət mülkiyyətləri üçün bu mexanizmin kifayət qədər mütərəqqi model olduğunu bildirdi: ”Dövlət ali təhsil müəssisələri adambaşına maliyyələşdirmə sistemi ilə qurulur. Dövlət sifarişi ilə təhsil alanların xərclərini dövlət ödəyir. Dövlət mərkəzləşdirilmiş imtahanda yüksək bal yığan, dövlət sifarişi ilə qəbul olunan tələbələrin təhsil alma xərclərini ödəyir”. Dövlət ali məktəblərində mövcud olan büdcə vəsaitlərinin 80-82%-nin əmək haqlarına sərf edildiyini deyən M.Cabbarov, son 5 ildə ali məktəblərin qarşısında öz büdcələri ilə davamlı inkişaflarını təmin etmək məqsədləri dayandığını diqqətə çatdırdı: ”Qalan vəsaitlərlə isə digər ehtiyaclar ödənilir. Bu da kifayət qədər mürəkkəb məsələdir. Ali məktəblər təhsildə keyfiyyət və daxili idarəçiliyi o səviyyəyə gətirilməlidir ki, öz büdcələri ilə davamlı inkişafı təmin etsinlər”. Bu amilləri nəzərə alaraq ali məktəblərin ”Maarifçi” Tələbə Kredit Fondu vasitəsilə tələbələrə kreditin verilməsi üçün öhdəlik götürdüyünü deyən nazir, burada əsas məqsədin hansısa şəkildə gəlir götürmək deyil, tələbələrə təhsili davam etdirib başa çatdırmaq imkanı vermək olduğunu bildirdi: ”Ötən müddət ərzində ”Maarifçi” Tələbə Kredit Fondu uğurla fəaliyyət göstərib, tərəfdaş universitetlərin sayı artıb. Əsas maliyyə resursları ali məktəblərdir. Universitetlərin bu təşəbbüsə qoşulması ilə ölkədə ilk dəfə tələbə krediti mexanizmi yaradıldı. Ümumilikdə layihənin uzunmüddətli və uğurlu olması, gələcəkdə bu məsələyə zəruri maliyyə vəsaitinin cəlb edilməsi ilə bağlıdır. Bunun üçün yalnız ali təhsil müəssisələri ilə məhdudlaşa bilmərik. Özəl şirkətlərlə əməkdaşlıq Fondun fəaliyyətinin genişlənməsində mühüm rol oynaya bilər. Məsələ dövlət siyasətinin bir hissəsi olduğuna görə, inanırıq ki, təhsil kreditlərində dövlətin də payı olacaq”. Nazir həmçinin bu sahədə beynəlxalq qurumlarla əməkdaşlığın vacibliyini qeyd edərək, təcrübələrdən bəhrələnmək üçün keçirilən tədbirin rolunu xüsusi vurğuladı.

### "YAXIN GƏLƏCƏKDƏ TƏLƏBƏLƏRƏ HANSISA TƏDQİQAT, ARAŞDIRMA İŞLƏRİNDƏ DƏ KÖMƏK EDİLƏ BİLƏR"

”Maarifçi” Tələbə Kredit Fondunun 2016-cı ildə Təhsil Nazirliyinin təşəbbüsü və 10 dövlət ali təhsil müəssisəsi tərəfindən təsis edildiyini deyən qurumun **icraçı direktoru Rüfət Mahmud** ötən il 103 tələbə ilə təhsil krediti müqaviləsinin imzalandığını və artıq 3-cü elan sessiyasına başlandığını diqqətə çatdırdı: ”Yaradılan fondun əsas missiyası aztəminatlı ailələrdən olan tələbələrə kreditlərin verilməsi vasitəsi ilə onlara ali təhsil almaqda bərabər imkanların yaradılmasıdır”. Bu gün tələbələr üçün təhsil kreditlərinin qaytarılması mexanizminin sabit qrafiklə hesablandığını deyən Fond rəhbəri, bir çox ölkələrdə gəlirə bağlı olan qrafiklər, mexanizmlər mövcud olduğunu qeyd etdi: ”Bu gün bizim üçün bunu tətbiq etmək bəlkə də bir qədər tezdir. Bunun üçün biz bu mexanizmi bir çox dövlət qurumları ilə birgə işləyib hazırlamalıyıq. Amma gələcəkdə bu mexanizmin olmasını istisna etmirik”. Hazırda ailə başçısını, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan, sağlamlıq imkanları məhdud olan tələbələrə təhsil kreditlərinin güzəştli şərtlərlə verildiyini qeyd edən R.Mahmud kreditlərin faiz dərəcəsinin 8 faizdən 6 faizədək dəyişdiyini bildirdi: ”Kreditin qaytarılma müddəti 5 ildən 10 ilədəkdir. Amma kreditin qaytarılması üçün tələbələrə təhsil müddəti bitdikdən sonra müəyyən güzəşt müddəti də verilir. Nəzərdə tutulur ki, o müddət ərzində tələbə hansısa işlə təmin olunacaq. Ödənişlər güzəşt müddəti bitdikdən sonra olmalıdır. Tələbəyə maksimum 7 min manat kredit verilir. Bu, sosial bir layihədir və bu zaman tələbələrdən hər hansı zamin və ya girov tələb olunmur”. Gələcəkdə tələbələrin yalnız təhsil haqqının ödənilməsi üçün kreditlərin verilməsi nəzərdə tutulmur. Biz bu işləri genişləndirməyi nəzərdə tuturuq. Bu, yataqxana xərcləri də ola bilər”. R.Mahmudun sözlərinə görə, rayonlardan gələn tələbələrlə ünsiyyət zamanı məlum olur ki, onların təhsil haqqından əlavə, yaşama yerləri ilə bağlı da problemləri yaranır: ”Yaxın gələcəkdə tələbələrə hansısa tədqiqat, araşdırma işlərində də kömək edilə bilər”. Hazırda bakalavr səviyyəsi üzrə kreditlər verildiyini deyən Fond rəhbəri digər təhsil dərəcələrinə görə kreditlərin verilməsinin də mümkün olacağını bildirdi: ”Təbii ki, strateji planlara görə, hansısa ixtisaslar üzrə də prioritetlər qoyula bilər”. R.Mahmudun sözlərinə görə, kreditin verilməsi üçün fond tərəfindən iki pilləli seçim meyarları müəyyənləşdirilib. Belə ki, ümumi tələblər və hər bir sessiya üçün xüsusi tələblər müəyyən olunur. Kredit alan tələbə Azərbaycan vətəndaşı, tərəfdaş universitetlərin tələbələri olmalı, akademik borcu olmamalıdır. Fond öz maliyyə risklərini də qiymətləndirir: ”Buna görə də meyarlardan biri də valideynin və tələbənin hansısa bankda defolt vəziyyətinin olmamasıdır. Bu, önəmli bir faktordur. İndi təqdim olunan kreditlər üçün tələblərdən biri də valideynin illik gəlirinin 10 min manatdan çox olmamasıdır”. R.Mahmud Fondun fəaliyyətinə artıq özəl sektorun da maraq göstərdiyini qeyd etdi. Belə ki, yaxınlarda Kapital Bankla Fond arasında əməkdaşlıq haqqında sənədlər imzalanacaq: ”Biz həmçinin digər özəl şirkətləri də Fondun fəaliyyətində iştirak etməyə dəvət edirik. Bu, hər şeydən əvvəl təhsilin inkişafına təkan olacaq”

### "BU SİSTEMİ DAHA TƏKMİL FORMAYA SALMAQ BARƏDƏ DÜŞÜNMƏLİYİK"

**Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Navid Həsən** Haqvi təhsil sahəsində yeniliklərin tətbiqi üçün Təhsil Nazrliyi ilə çalışmaqda qərarlı olduqlarını dedi: ”Biz ”Maarifçi” Kredit Fondu ilə əməkdaşlıq edirik. Bu sistemi daha təkmil formaya salmaq barədə düşünməliyik”. Bu işləri müxtəlif tərəfdaşlarla əməkdaşlıq sahəsində həyata keçirməyə hazır olduqlarını və burada Maliyyə Nazirliyini də nəzərdə tutulduğunu deyən menecer ”Maarifçi” Tələbə Kredit Fondu ilə də kifayət qədər əməkdaşlıqları olduğunu qeyd etdi: ”Azərbaycanda ali təhsil sistemindən bəhrələnənlərin sayı çox olsa da, digər ölkələrdə vəziyyət daha yaxşıdır. Kredit sisteminin tətbiq edilməsi bu sahədə böyük addımdır və ali təhsil sahəsində mobil çevikliyin tətbiqində əsas amillərdəndir. Biz bu yolda sizə köməklik göstərməyə hazırıq”.

Azərbaycanda tələbələrə təhsil haqqının ödənilməsi təcrübəsinin digər ölkələrin də bəhrələnə biləcəyini deyən **Dünya Bankının təhsil üzrə eksperti Kristian Aedo** ölkədə təhsil krediti götürən tələbələrin faiz ödəmə yükünün azaldıldığını qeyd etdi: ”Nazirlik bu sahədə bizə məlumat verdikdə onlara analitik dəstəyin göstərilməsi qərarına gəldik. Biz kreditlərin verilməsi ilə bağlı bütün məsələləri müzakirə etdik və bu sahədə ən yaxşı təcrübələrdən istifadə etməsi üçün nəticələri nazirliyə təqdim etdik. Bu sistemi başqa ölkələrdə də yaya bilərik. Məqsədimiz bu kredit sisteminin daha da faydalı olmasıdır”. Hələlik təhsil kreditlərindən az tələbə yararlana bildiyini qeyd edən ekspert, bu sahədə genişlənmənin düşünüldüyünü söylədi.

**Dünya Bankının təhsil üzrə eksperti Ceyson Viver** tələbə kreditlərinin ali təhsildə əlyetərlik imkanları yaratdığını, qurumun hazırladığı müzakirə sənədində Azərbaycanda tətbiq edilən təcrübənin innovativ olduğunu bildirdi.

”Maarifçi” Tələbə Kredir Fondunun fəaliyyətini cəmiyyətimiz üçün mühüm addım hesab edən **AMEA-nın vitse prezidenti, millət vəkili İsa Həbibbəyli** Fondun fəaliyyətini aztəminatlı ailələrin sosial təminatında rolunu yeni nəslə yol açmaq kimi dəyərləndirdi: ”Bu, gənclərin təhsilə çıxış imkanlarını genişləndirəcək. Təhsilin əlçatanlığını hər kəs üçün təmin edəcək”. Akademik AMEA-nın da Fondla əməkdaşlıq etməyə hazır olduğunu, magistratura pilləsindən təhsil alanların gələcəkdə fondun kredit sistemindən yararlana biləcəyini qeyd etdi.

Tədbir çərçivəsində müzakirələrdə fondun fəaliyyətini daha da genişləndirməklə bağlı maraqlı təkliflər səsləndi. Müzakirələr Fondun fəaliyyətinin yaxın illərdə daha geniş tələbə auditoriyasını əhatə edə biləcəyinə əminlik yaratdı.

**Təranə Məhərrəmova**